# Aparteid anlayışı və tarixi

**Aydan Ağazadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Siyasi İdarəetmə fakültəsinin*
*Hüquqşünaslıq ixtisasının bakalavr tələbəsi*

Dünyada baş verən bir çox regional mübarizələrin və ya qarşıdurmaların mənbəyində müxtəlif irqlər arasında hökm sürən düşmən və əksmövqeli münasibətlər dayanır. Bir çox ölkələrdə hələ də davam edən və çoxsaylı insanın ölümü ilə nəticələnən fərqli irqlərin bir - birinə qarşı təcavüzkar siyasətinin səbəbi məhz "soy qoruyuculuq", yəni daha dəqiq desək, "irqçilik"dir. Bu məfhum özündə bir irqin digərindən müəyyən əlamətlərə görə üstün olmasını, üstün olanın digərinə qarşı mərhəmət, hörmət, qayğı bəsləməsinin lüzumsuz olduğunu, hətta müxtəlif irqlərin nümayəndələrinin bir yerdə olmasının belə səhv olacağı ehtiva edir, lakin bu mövqe son dərəcə qeyri-insani bir yanaşma tərzidir. Çünki bu anlayışa görə fərqli xalqların var olmalarına ehtiyac yoxdur və bütün "fərqli olanlar" aradan qaldırılmalıdır. Ən azından cəmiyyətdəki neqativ halların aradan qaldırılmasında irqçiliklə mübarizənin mühüm əhəmiyyəti vardır. Əvvəldə də qeyd etdiyim kimi, müasir dövrdə dünyanın bir çox ölkələrində irqi ayrıseçkiliyin yaranması bir çox insan ölümlərinə, cinayətlərin meydana gəlməsinə səbəb olur ki, bu məsələlərə daha sonra toxunacağıq.

Ancaq irqçiliyin keçmiş illərdə olduğu kimi indiki zamanda da bu qədər şiddətlənməsinin səbəbləri arasında özünə fikri bir dayaq tapması məsələsi artıq hər birimizə bəlli bir məsələdir. Bir vəhşilik olaraq qarşımıza çıxan irqçi anlayışın "deyilənə görə" elmi bir dayağı vardır. Bu elmi dayaq Darvinin təkamül nəzəriyyəsidir. Düşünürəm ki, həqiqətdə təkamül nəzəriyyəsi bioloji bir anlayışından uzaq olan, geniş kütləleri təsiri altına alan "irqçilik" kimi yanlış fəlsəfələrin də infrastrukturunu meydana gətirən bir nəzəriyyədir. Hər nə qədər subyektiv olaraq Darvinin təkamül nəzəriyyəsini qəbul etməsəm də, danılmaz faktdır ki, zaman keçdikcə Darvinin nəzəriyyəsi özünə daha çox dəstək qazandı. XIX əsrin hakim dairəsi məhz bu nəzəriyyə ilə əvəzolunmaz bir tapdı. Qısacası, XIX əsrin ikinci yarısında avropalılar digər mədəniyyətləri, şəhərləri yağmalayırdılar. Heç bir hüquqları olmadığı halda bir ölkəni zorla ələ keçirir, sonra bu ölkədəki insanları təzyiq altına salaraq ölkənin qaynaqlarını ələ keçirirdilər. Düşünürəm ki, indiki zamanda da irqçiliyin belə təhlükəli xarakter alması məhz yuxarıda qeyd etdiyim məsələlərlə bağlıdır. Məhz sonrakı başlıqlarda buna daha ətraflı baxacağıq, lakin deyilənləri ümumiləşdirərək aparteidin anlayışını, tarixini qısaca xarakterizə edək.

Aparteid insanlıq əleyhinə cinayətin tərkibini yaradan əməllərdən biridir. "Aparteid cinayəti" termini özündə vaxtilə Afrikanın cənubunda tətbiq olunmuş irqi seqreqasiya və ayrı - seçkilik siyasətini ehtiva edir. Cənubi Afrika Respublikasında aparteid irqçilər tərəfindən rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmış və qanunvericilikdə öz əksini tapmışdı. Bu zaman afrikalıların yerdəyişməsi məhdudlaşdırılaraq onlara qarşı qadağanetmə siyasəti həyata keçirilirdi. Ümumilikdə, aparteid bir irqə mənsub olan insan qrupunun hər hansı digər irqə mənsub insan qrupu üzərində ağalığını qorumaq və saxlamaq, ona sistematik zülm vermək məqsədi ilə törədilən qeyri - insani əməlləri ifadə edir. İnsanlıq əleyhinə cinayət kimi aparteidin özünəməxsus tərkib elementləri vardır:

a) cinayətkar bir və ya bir neçə şəxsə qarşı aparteid cinayətinin tərkibini yaradan əməl törədir;

b) bu əməl Beynəlxalq Cinayət Məhkəməsinin Statunun 7 - ci maddəsinin 1- ci bəndində göstərilən əməllə eynilik təşkil edir,

yaxud öz xarakterinə və təhlükəlilik dərəcəsinə görə bu aktların hər birinə oxşardır;

c) bu cinayəti həyata keçirən şəxs törətdiyi əməlin hansı şəraitdə baş verdiyini dərk etməli və bilməlidir;

d) bir qrupun digər irqi qrup üzərində ağalıq etmək və sistematik zülm etmək rejimi dövlət planı və ya siyasəti nəticəsində törədilməlidir;

e) cinayətkar bu əməldə rejimi qoruyub saxlamaq məqsədində olur;

Beynəlxalq cinayətlərin kateqoriyasına daxil edilmiş bu cinayətin tarixinə nəzər saldıqda görürük ki, Avropa müasir dövrün başlanğıcına qədər irqçilik anlayışıyla tanış deyildi. Orta əsrlərdə Katolik Kilsəsinin qurduğu cəmiyyət modeli irqçilikdən tamamilə uzaq idi və irqçiliyi qəbul etmirdi. İnsanlar özlərini hər hansı irqin nümayəndəsi kimi deyil də, ümumilikdə Xristian dininin nümayəndələri olaraq qəbul edirdilər. Xristian olmayan cəmiyyətləri də irqi ayrıseçkiliyə həssas yanaşırdılar. Hətta, 590-604 illəri arasında Papa Gregori yəhudilərə hər hansı irqi təzyiq edilməsini qadağan etmişdi və bu qayda sonrakı dövrlərdə də davam etdirilirdi.

Qeyd etmək lazımdır ki, Katolik Kilsəsi Kolomb və adamlarının qarşıya qoyduğu “Amerikan yerlilərinin bir növ heyvan olduğu” şəklindəki düşüncəyə qarşı çıxmışdı. Amerikanı yəhudilik adına kəşfə çıxan Kolomb, yəhudi təlimindəki irqçilik düşüncəsini Amerikan yerlilərinə tətbiq etməkdən heç bir halda çəkinmirdi və elə bu səbəbdən Katolik kilsəsi buna reaksiya vermiş, qeyd etmişdir ki, bu insanlara da dinin izah edilməsi lazımidir. Bunun ən məşhur nümunəsi, Chiapas yepiskopu Bartolome də Las Casasın, Kolomb ilə birgə Yeni Dünyada yaşayan koloniyaçıların “yerlilər bir növ heyvandır” iddiasına qarşılıq, yerlilərin “gerçək bir insan” olduğunu müdafiə etmiş olmasıdır. Yeni Dünyada irqçiliyin ən görkəmli nümayəndələri isə əsas etibbarilə  Püritenler olmaq üzrə, İngilis koloniyaçıları idi və onlar protestant idilər. Burada doğan irqçilik, Anqlo-Sakson (İngilis və Amerikan) irqçiliyini meydana gətirmişdir. İngiliscə danışan şəxlərin başqalarından üstün olduğunu müdafiə edən bu təlim imperializmə də güc vermişdir. Anqlo-Sakson irqçiliyindəki Protestant və xüsusilə də Püriten təsirinin əhəmiyyətinə diqqət çəksək görərik ki, Tomas Gossett “üstün irq” birləşməsinin mənbəyini belə analiz edir ki, Tanrı, öz xalqını firavan etmək  üçün, başqalarının yox edilməsini istədi. Bir başqa Püriten, “Tanrı, aralarında xəstəlik yayaraq Massachusettsdəki Qırmızıdərililərin ədədlərini 30 mindən üç yüzə endirməmizi istədi” demişdi.

ABŞ - ın görkəmli şəxsiyyəti Benjamin Franklin, daha sonra eyni düşüncəni müdafiə edərək öz avtobioqrafiyasında belə yazırdı: “Yerlilərə içirdiyimiz rom içkisi Tanrının qırmızıdərililəri yer üzündən silmək üçün etdiyi planın bir parçası idi”.

## 2. İslam hüququnda və digər ölkələrin qanunvericiliklərində irqi ayrıseçkilik

Düşünürəm ki, bu məsələnin müsəlman hüququnun əsasını təşkil edən Quranda necə əks olunduğunu bilmək maraqlı olardı. Quran əxlaqında fərqli xalqların və qəbilələrin yaradılmasının səbəbi “insanların bir-birləri ilə tanış olmaları” şəklində bildirilmişdir. Bu müxtəliflik Allahın yaratdığı bir gözəllikdir. Bir adamın bədəninin qara, digərinin sarı və ya ağ rəngdə olmasının heç bir önəmi yoxdur. Hər bir yaradılış gözəldir. Bir adamın fərqli rəngə, ya da fərqli fiziki xüsusiyyətlərə malik olması o adama hər hansı bir üstünlük vermir və ya əksinə, heç də onu digərlərindən aşağı mövqedə olduğunu göstərmir. Allah “Hucurat surəsi”ndə bu həqiqəti belə bildirir:

- Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Bilәndir, Xəbərdardır. (Hucurat surəsi, 13)

İstərdim ki, digər ölkələrin qanunvericiliklərində  bu məsələnin necə əks olunduğuna diqqət yetirək. İlk öncə Türkiyədə məsələnin necə olduğuna baxaq. Türkiyə Konstitusiyasında  qanun qarşısında bərabərlik 10-cu maddədə təsbit olunmuşdur: “ X. Qanun qarşısında bərabərlik

Hər kəs , dil , irq , rəng , cinsiyyət , siyasi düşüncə , fəlsəfi inanc , din , məzhəb və bənzəri səbəblərlə fərq qoyulmadan qanun qarşısında bərabərdir .”

2005 -ci ildə qüvvəyə minən  Türk Cəza Qanununa ayrı-seçkiliklə əlaqədar bəzi tənzimləmələr edilmişdir. Bunların başında isə qanunun tətbiq olunması əsnasında ayrı-seçkil-

iyin qadağan olunması 3. maddənin 2-ci bəndində belə göstərilmişdir :

" Cəza Qanununun tətbiqində kəslər arasında irq, dil, din, məzhəb, milliyyət, rəng , cinsiyyət, siyasi və ya digər fikir yaxud düşüncələri, fəlsəfi inanc, milli və ya sosial mənşə, doğum, iqtisadi və digər ictimai mövqeləri cəhətdən ayrı-seçkilik edilə bilməz və heç bir kimsəyə imtiyaz tanınmamalıdır . "

Fransa İnsan Hüquqları Bəyannaməsinin ilk məqaləsində də belə bir fikir vardır:"Mən anadan azad doğulmuşam və hər kəslə bərabər hüquqlara malikəm." Hal - hazırda qüvvədə olan Fransa cinayət qanunvericiliyinə əsasən, belə qeyd olunur ki, əgər Fransada belə cinayət, yəni irqi-ayrıseçkiliklə bağlı cinayət olarsa, bu 45000 avro pul cəzası və ya 3 il müddətində azdlıqdan məhrumetmə ilə cəzalandırılır. Qeyd etmək istəyirəm ki, ABŞ-la müqayisədə Fransada irqi-ayrıseçkiliklə bağlı cəzalar daha sərtdir. Bir faktı da qeyd etmək lazımdır ki, "demokratiyanın beşiyi" adlanan ABŞ öz qanunvericiliyində belə irqi qruplara daha yüksək sanksiya tətbiq edir. Məlumat üçün deyim ki, 2009- cu ildə edilən bir araşdırmaya görə, qaralar Amerikan cəmiyyətinin 13% -ni təşkil etsə də, buna qarşı həbsxanalardakı məhkumların yarısına yaxını qaralardan ibarət idi . Qaraların aldıqları cəzalar ağdərililərdən 10% daha uzun olmaqda və ömür boyu həbs cəzası alanların 3 də 2 sini azlıq nümayəndələri təşkil etməkdə idi . Yəni Obamanın rəngi belə ABŞ - da irqi ayrı seçkiliyə son qoymadı.

Serbiya qanunvericiliyinə əsasən, Serbiyada yaşayan xalqlar və etnik icmalar arasında , etnik , irqi və ya dini nifrət və dözümsüzlüyə təhrik edən və bu təhrik nəticəsində cinayətin baş verməsinə səbəb olan şəxs beş il altı ay həbs cəzası ilə cəzalandırılır.

Bolqarıstan qanunvericiliyinə görə "Vətəndaşların bərabərliyinə qarşı cinayətlər" fəslində qeyd olunur ki, elektron informasiya sistemləri vasitəsilə və ya hər hansı digər söz , mətbuat və ya kütləvi informasiya vasitələriylə kimsə irqi, milli və ya etnik zəmində ayrı-seçkilik , zorakılıq və nifrət təbliğ edən çağırışlar edərsə, 1 ildən 4 ilə qədər azadlıqdan məhrumetmə və ya 5000 saatdan 10000 saatadək ictimai işlər cəzası ilə cəzalandırılır. Hətta "Qərbi Balkanlarda Moni inkişafının monitorinqi - məhkəmə və asayişin təminatı institutları 2009-2011" adlı "Monteneqro qaydalar proqramı"nda aşağıdakı fikir öz əksini tapmışdır: "AB-yə nəzərdə tutulan gələcək hesabat öhdəlikləri nəzərə alaraq Əsas hüquqlar Agentliyi ( FRA ) irqçilik və ksenofobiya və digər nifrət motivi olan cinayətləri , uyğun təşkilatlar üçün mərkəz nöqtəsi kimi təyin edilməlidir,həmçinin irqçi cinayətlərin statistikası toplanmalı, ksenofobiya və ya digər nifrət motivi əks etdirən cinayətlər minimuma endirilməlidir."

Makedoniya Cinayət Məcəlləsinin (114/09 saylı Respublikanın Rəsmi Qəzetində ) Sentyabr 2009-cu ildə qəbul olunmuş qanuna görə bir irqin üstünlüyü haqqında fikir yayan,hər hansı irqi müdafiə və ya irqi ayrı-seçkiliyə sövq edən və yol verən şəxslər üç il altı ay həbs cəzası ilə cəzalandırılır, lakin bir digər ölkə ilə - Albaniya ilə müqayisədə Makedoniyanın bu əmələ görə nəzərdə tutduğu sanksiya, fikrimcə, olduqca aşağıdır. Albaniyada əhalinin bir qrupunun məhvinə qarşı konkret qəsdlə xarakterizə olunan, eyni zamanda işgəncə və zorakılıqla müşayiət olunan irqi, dini, etnik, siyasi, ideoloji motivlərlə törədilən cinayətlər 15 ildən az olmayaraq azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Çox maraqlı məsələdir ki, coğrafi cəhətdən iki qonşu dövlətin eyni əmələ görə nəzərdə tutduqları sanksiyalar bir - birindən çox fərqlənir.

İsveçrə qanunvericiliyinə əsasən, şəxs hər hansı səbəb üzərinə , digər irqə mənsub olan şəxsləri açıq şəkildə pisləyir və ya irqi səbəbiylə , insan ləyaqətini alçaldan şəkildə, eyni zamanda təcavüz aktlarından istifadə edərək və ya digər vasitələrlə cinayət törədərsə, üç ildən çox olmayan həbs cəzası və ya cərimə cəzasına məhkum olunur. Hətta İsveçrədə hesab olunur ki, beynəlxalq hüquqa görə , İsveçrə rəsmi olaraq milli təhlükəsizliyin , ictimai asayişin və ya insanların sağlamlığını qorumaq üçün zəruri olan ən qəti - imkan tədbirləri seçərək sadalanan elementlərə qarşı edilən cinayətlərin qarşısının alınmasına yönəlmiş hər cür tədbirə haqq qazandırır. Bundan əlavə, hər hansı bir siyasət İsveçrə vətəndaşları və xarici vətəndaşlar arasında, bir sözlə, irqi qruplar arasında qarşıdurma yarada bilməz və ayrı-seçkiliyə heç bir halda yol verilmir. Hətta bu bir faktdır ki, əcnəbilər ( irqi, dini, etnik, milli mövqeyindən asılı olmayaraq ) İsveçrə vətəndaşları ilə viza almadan evlənə bilərlər. Lakin hər nə qədər belə humanitar qanunlardan yazsaq da, təəssüflə qeyd etməliyik ki,

Yunanıstan parlamentinin üzvləri , hökumət və FRA - nın görüşündən aydın olmuşdur ki, son illərdə Yunanıstanda irqçi zorakılıq hadisələri artmaqda davam edir. Son zamanlar isə İtaliyada Tunisdən olan immiqrantların sayı sürətlə artmaqdadır və hakimiyyətin sağ qolu onlara qarşı "açıq irqçi" davranış sərgiləyir. İspaniyanı da Yunanıstanla müqayisə etsək, görərik ki son illərdə bu ölkədə də irqçilik artmaqdadır. İqtisadiyyatın müəyyən dərəcədə inkişafı Morokko kimi Şimali Afrika ölkəsindən olan immiqrantların sayının artmasına səbəb olsa da, irqi ayrıseçkiliyin hökm sürməsi qarşıdurmalara və vətəndaş müharibələrinə gətirib çıxarmışdır.

Ümumilikdə isə Avropada irqçi etirazlar bəzən belə demək mümkünsə, "səhnələşdirilimiş" olur. Çünki siyasətçilər daha çox səs toplamaq niyyəti ilə digər irqlər üçün düşmənçiliyi qəbul edə bilirlər. Təbii ki, bu davam etsə, bundan əziyyət çəkən elə Avropanın özü olacaq.

Başqa bir fərqli ölkənin - Namibiyanın Konstitusiyasının 3 - cü fəslinin 10 - cu bölümündə ("Bərabərlik və irqi ayrıseçkilikdən mühafizə) qeyd olunur ki, bütün insanlar qanun qarşısında bərabərdir. Şəxslər , irq, rəng, etnik mənşə, din, məzhəb və ya sosial və iqtisadi vəziyyətinə görə ayrı-seçkiliyə məruz qala bilməz.

Həmçinin həmən konstitusiyanın eyni fəslinin 23 - cü (" Aparteid və məqbul fəaliyyət" adlanır ) bölməsində belə bir fikir vardır : " İrqi ayrıseçkiliyin paraktikası və aparteid ideologiyası Namibiya xalqının əksəriyyət hissəsinin uzun müddət əziyyət çəkdiyi bir məsələdir, məhkəmələrin bu barədə təcrübəsinin olması vacibdir və bu cür təcrübələrin təbliği məhkəmələr tərəfindən cinayət cəzası ilə müşayiət olunur, bu kimi cəzaları Parlament namibiyali insanların öz inqilablarını ifadə etmək məqsədi üçün zəruri hesab edir."

### 3. İrqi-ayrıseçkilik beynəlxalq aspektdə

Təbii ki, bu qədər aktual məsələyə beynəlxalq tənzimləməni nəzərdən keçirməmək olmazdı. Ona görə də gəlin məsələyə beynəlxalq mövqedən yanaşaq. İlk öncə Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunda 1998 - ci il 15 iyun - 17 iyul tarixləti arasında həyata keçirilən diplomatik konfransın Yekun aktının preambulasına nəzər salaq. Statutun preambulasında qeyd olunur ki, bütün beynəlxalq birliyi narahat edən ən ciddi cinayətlərin cəzasız qalmamasının və onların təsirli təqibinin həm milli səviyyədə həyata keçirilən tədbirlər, həm də beynəlxalq əməkdaşlığın fəallaşdırılması ilə təmin edilməli olması səlahiyyətli şəxslərin üzərinə öhdəlik kimi qoyulur. Bu statutun 7 - ci maddəsinin ( "İnsanlıq əleyhinə cinayətlər") (j) bəndində aparteid cinayəti insanlıq əleyhinə törədilən cinayətlər sırasında göstərilmişdir və həmçinin hər hansı bir qrup milli, etnik, irqi motivlərlə təqibə məruz qalarsa, bu da insanlıq əleyhinə olan cinayət kimi qiymətləndirilir, çünki Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu həmin əməlin, yəni aparteidin insan ləyaqətinin əsaslarına qəsd edən xüsusilə ağır və antihumanist xarakterini nəzərə alaraq, onu tamamilə əsaslı olaraq insanlıq əleyhinə cinayətlər sırasına daxil etmişdir.

Statut bu əməli "bir irqi qrupun digər irqi qrup və ya qruplar üzərində təsisatlaşdırılmış sistematik zülm və ağalıq rejimi kontekstində və həmin rejimi qoruyub saxlamaq məqsədi ilə törədilən qəddar hərəkətlər" kimi müəyyənləşdirir (7 - ci maddənin 2 - ci hissəsinin (h) bəndi) . Bundan başqa, ilk başlıqlarda qeyd etmişdik ki, aparteid qeyri - insani əməlləri ifadə edir. Bu əməllər eynilə Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyasında öz əksini tapmışdır. Demək olar ki, aparteid cinayətinin "statusu" da məhz bu konvensiya ilə müəyyən olunur. Aparteid Beynəlxalq Cinayət Məhkəməsinin statusunda insanlıq əleyhinə cinayət kimi göstərilmişdir. Aparteid insanlığa sığmayan elə bir əməldir ki, öz xarakterinə görə rejimin saxlanılması məqsədilə özündə sistematik zülmü ifadə edir. Beynəlxalq hüquqda irqi ayrı-seçkilik qadağası həm ümumi, həm də xüsusi, eyni zamanda bir çox beynəlxalq sənəd və müqavilədə əks olunan ümumi bir normadır. Bu ümumi norma, beynəlxalq hüququn 1945 - ci ildən sonra inkişaf edən iki spesifik sahədə konkret təsir doğurmuş , irqi ayrı-seçkilik həm başlı-başına insan hüquqları pozuntusu meydana gətirdiyi üçün beynəlxalq insan hüquqları , eyni zamanda beynəlxalq cinayətlərə çevrildiyi üçün beynəlxalq cinayət hüququ tərəfindən tənzimləmə mövzusu olmuşdur. Buna görə də ilk öncə Avropa Konvensiyasının 14-cü maddəsinə nəzər salaq:

"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin

rəngi,dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görəayrı-seçkilik olmadan təmin olunmalıdır.

Əsas kimi "İrqi və etnik mənşə"nin genişliyi Aİ və AİHM-in yanaşmaları baxımından fərqlənir. Fərq ondadır ki, İrqi Bərabərlik haqqında Direktiv "milliyət"i irq və ya etnik mənsubiyyət konsepsiyasından açıq şəkildə istisna edir. Milliyəti açıq şəkildə istisna etməkdən əlavə, İrqi Bərabərlik haqqında Direktiv özü-özlüyündə "irqi və ya etnik mənşə" anlayışını da vermir. İrq və ya etnik mənşənin necə başa düşülməli olması haqqında bir sıra başqa sənədlər də mövcuddur. Amma qeyd etmək istəyirəm ki, nə "rəng", nə də milli azlığa məxsusluq İrqi Bərabərlik haqqında Direktivdə sadalanmasa da, AİHK-da ayrıca əsaslar kimi sadalanırlar.

Bundan başqa, Avropa Şurasının İrqçilik və Dözümsüzlüyə qarşı Komissiyası (ECRİ) da "irqi ayrıseçkiliyə geniş bir anlayış vermişdir. Belə ki bu anlayışda özündə "irq, rəng, dil , din, milliyyət və ya milli və ya etnik mənşə" kimi əsasları ehtiva edir. Oxşar şəkildə, İrqi Ayrıseçkiliyin Ləğv olunması haqqında (AB-nin və Avropa Şurasının bütün üzv dövlətlərinin qoşulmuş olduğu) 1966- cı il BMT Konvensiyasının 1- ci Maddəsi ilə də irqi-ayrıseçkiliyə verilən anlayış "irq, rəng, törəmə və ya milli və ya etnik mənşə" kimi əsasları özündə ehtiva edir . İrqi-ayrıseçkiliyin Ləğv olunması haqqında Komitə (CERD) də müəyyən etmişdir ki, əksi sübut olunmayınca, bir fərdin hansısa bir irqi və ya etnik qrupa məxsus olub-olmadığının müəyyənləşdirilməsi sözügedən şəxsin öz mənsubiyyətini necə müəyyən etməsinə əsasən həyata keçirilməlidir .

İrqi Ayrıseçkiliyin Ləğvi Komitəsinin fərdi şikayətlər Proseduruna nəzər salsaq görərik ki, İrqi Ayrıseçkiliyin Ləğvi Komitəsi 18 müstəqil ekspertdən ibarətdir və BMT-nin İrqi Ayrıseeçkiliyin Bütün Formalarının Ləğvi Üzrə Beynəlxalq Konvensiyanın nəzarət funksiyalarını həyata keçirən müqavilə orqanıdır. Digər (Dövlətlərin dövrü hesabatları, dövlətlərin dövlətlərə qarşı şikayət proseduru) prosedurlarla yanaşı fərdi şikayətlər proseduru da vardır. Konvensiyanın 14-cü maddəsinə qoşulduğunu bəyan edən istənilən dövlətə qarşı fərdi şikayət təqdim edilə bilər. Beləliklə, irqi ayrıseçkiliyin qurbanı olduqlarını iddia edən ayrı-ayrı şəxslər və ya şəxslər qrupu öz dövlətlərinə qarşı IALK-a şikayət verə bilərlər. Konvensiya həmçinin nəzərdə tutur ki, sözügedən bəyanatı vermiş dövlətlər hüquqlarının pozulmasının qurbanı olduqlarını iddia edən və digər yerli hüquqi müdafiə vasitələrini tükəndirən ayrı-ayrı şəxslərdən və ya şəxslər qrupundan petisiyalar (şikayətlər) qəbul etmək səlahiyyətinə malik milli orqanları təsis edə və ya göstərə bilərlər. Şikayətçilər bu məsələni baxılmaq üçün yalnız o halda Komitəyə verə bilərlər ki, həmin orqanın hərəkətləri onları qane etməsin. (İrqçiliyə və irqi ayrı-seçkiliyə qarşı mübarizəyə dair İkinci Ümumdünya Konfransı tərəfindən 1983-cü ildə qəbul edilən Fəaliyyət Proqramında belə şikayətlərə baxılması üzrə dövlətlərin milli prosedurlarından daha geniş istifadə imkanını təmin etmək dövlətlərə təklif olunur. Mövcud prosedurlar barədə ictimaiyyətə məlumat verilməli, irqi ayrıseçkiliyin qurbanlarına isə belə prosedurlardan istifadə etməkdə yardım göstərilməlidir. Şikayət vermə qaydaları sadə olmalı, şikayətlər isə mümkün qədər tez qəbul edilməlidir. İrqi ayrı-seçkiliyin aztəminatlı qurbanlarına mülki və ya cinayət mühakimə icraatı çərçivəsində hüquqi yardım göstərilməli və vurulan ziyana görə kompensasiya tələb etmək hüququ nəzərdə tutulmalıdır.)

Qeyd etmək yerinə düşər ki, irqi məsələləri AİHM "şübhəli kateqoriyaya" aid edir. Ona görə də gəlin belə bir məsələyə diqqət yetirək:

Şərqi Afrikadan olan asiyalılar Birləşmiş Krallığa qarşı iş (1973) həmin bölgədən olan asiyalıların Birləşmiş Krallıqdan çıxarılması haqqında idi. Onlar müxtəlif kateqoriyalardan olan Britaniya vətəndaşları idilər, lakin getməyə başqa yerləri yox idi, çünki vətənləri olan Afrika dövlətlərində onların yaşamaları çətin idi və onlar bir yerdən başqa yerə "köçürülmə" təhlükəsi altında ifilər. Rəftardakı bu aşkar fərq irqi əlamətlərə əsaslanırdı, çünki müvafiq qanunvericilik, ancaq nənə-babalarının Birləşmiş Krallıqla əlaqəsinin olduğu insanların məhdudiyyət qoyulmadan ölkəyə daxil olmalarına icazə veririrdi. Bu qayda "ağ dərili" mühacir vətəndaşların xeyrinə işləyirdi. Komissiya qərara aldı ki, "irqə əsaslanan ayrı-seçkilik müəyyən hallarda Konvensiyanın 3-cü maddəsinin mənası baxımından ləyaqəti alçaldan rəftara bərabər ola bilər" və "irqə əsaslanan ayrıseçkiliyə xüsusi diqqət yetirilməlidir ".

AİHM Kipr adasında yaşayan sakinlərin iki qrupundan birinə qarşı ayrıseçkilik praktikasına aid müəyyən etdi ki, irqə əsaslanan geniş miqyaslı və ciddi ayrıseçkilik rəftarı sübuta yetirilib və qərara aldı ki, bu cür rəftar Konvensiyanın 3-cü maddəsini pozur, yəni buradakı ayrıseçkilik əvvəlki məsələdə də olduğu kimi eyni zamanda ləyaqəti alçaldıcı rəftar kimi qiymətləndirilməlidir.

Beləliklə, Komissiya hesab etdi ki, "ləyaqəti alçaldan rəftar" təşkil etmək üçün ayrıseçkiliyin digər əlamətləri kifayət qədər ciddi hal sayılmadıqda belə, irqi ayrıseçkilik kifayət qədər ciddi hal sayılır. Komissiya, həmçinin, hesab etdi ki, ləyaqəti alçaldan rəftarın olması üçün ayrıseçkiliyə qəsdən yol verilməlidir.

Bundan başqa, Aparteid cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Beynəlxalq Konvensiyaya nəzər salsaq, görərik ki, bu konvensiyaya qoşulmuş dövlətlər beynəlxalq və milli səviyyələrdə yeni, daha təsirli tədbirlərin görülməsinə imkan verəcəyinə əmin olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1 - 1. Bu Konvensiyanın iştirakçısı olan dövlətlər bəyan edirlər ki, aparteid bəşəriyyətə qarşı cinayətdir və bu Konvensiyanın 2-ci maddəsində müəyyən edilən aparteid siyasəti və praktikasının və ona oxşar irqi seqreqasiya və ayrı-seçkilik siyasəti və praktikasının nəticəsi olan insanlıqdankənar hərəkətlər beynəlxalq hüquq prinsiplərini, o cümlədən Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərini pozan və beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid doğuran cinayətlərdir.

2. Bu Konvensiyanın iştirakçısı olan dövlətlər aparteid cinayəti törədən təşkilatları, təsisatları və ayrı-ayrı şəxsləri cinayətkar elan edirlər.

Həmçinin bu Konvensiyaya qoşulmuş dövlətlər aparteid cinayətinin kökünü kəsmək, eləcə də aparteid cinayətinin və ona oxşar seqreqasiya siyasətinin, yaxud onun təzahürlərinin hər cür təşviq edilməsinin qarşısını almaq və bu cinayətdə günahkar olanları cəzalandırmaq üçün hər cür qanunvericilik aktları və digər aktlar qəbul etməyi öz öhdələrinə götürürdülər.

Həmçinin BMT-nin keçmiş baş katibi Kofi Annan 8 may 2007 - ci il tarixli nitqində qeyd etmişdi ki, nə qurtuluş, nə də müstəqillik elan edilməklə şəxslərin azadlığı təmin edilə bilər. Bir çox ölkələrdə , irqi ayrı-seçkilik artıq rəsmi olaraq qadağalarla müşayiət olunsa da, iş bununla bitmir. İrqi ayrıseçkiliyə son qoymaq və bu qaydalara riayət, hörmət hər bir ölkənin qarşısında mühüm vəzifə kimi qoyulmalıdır.

BMT - nin aparteidlə bağlı apardığı araşdırmalardan belə məlum olur ki, aparteid siyasətinə görə məsuliyyət daşıyan şəxslərin qeyri - insani əməlləri ölkə vətəndaşlarının etirazına, eyni zamanda bəzi ölkələrdə vətəndaş müharibəsinə qədər gətirib çıxarmışdır ki, bu da öz növbəsində beynəlxalq sülhün və təhlükəsizliyin pozulmasına şərait yaradır. Aparteid həm də psixoloji təcavüzkar müharibədir, çünki onun baş verməsi nəticəsində cəmiyyətin bütün mənəvi və əxlaqi dəyərləri məhv edilir. Yüksək ictimai təhlükəliliyi həm də onunla xarakterizə olunur ki, bu cinayət təkcə bir ölkə daxilində deyil, hətta başqa ölkələri də əhatə edə bilər. BMT - nin Baş Məclisi özünün çoxsaylı bəyannamələrində dəfələrlə qeyd etmişdir ki, aparteid siyasəti və təcrübəsi BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə tam ziddir və bu beynəlxalq cinayət məsuliyyəti yaradır.

## 4. Milli qanunvericiliyimiz və irqi-ayrıseçkilik

Bu haqda danışmaq üçün ilk öncə Konstitusiyamızın 25- ci maddəsindən sitat gətirmək istəyirəm:

"Dövlət, irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlılarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını iri, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır."

Həmçinin həmən maddənin 4-cü bəndində də qeyd olunur ki, yuxarıda göstərilən əsaslar üzrə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina edilə bilməz.

Bu cinayət tərkibinə (aparteid) Azərbaycan Republikası Cinayət Məcəlləsinin "İrqi ayrıseçkilik (aparteid)" adlanan 111 - ci maddəsi uyğun gəlir, lakin Rahim Məmmədov "Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi" adlı kitabında yazır ki, maddənin başlığında qeyri - dəqiqliyə yol verilmişdir: "İrqi ayrıseçkilik

və aparteid ayrı - ayrı anlayışlar olub müxtəlif normativ məzmuna malikdirlər və eyniləşdirilə bilməzlər". Mən bu fikirlə tamamilə razıyam, çünki bu fikrin hüquqi əsaslandırması vardır. Onlar iki müxtəlif beynəlxalq hüquq aktı ilə - müvafiq olaraq, "İrqi - ayrıseçkiliyin bütün formalarının ləğvi haqqında 1965 - ci il Konvensiya" və "Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" ilə tənzimlənir. Hətta maraqlıdır ki, Cinayət Məcəlləsinin 111 - ci maddəsində söhbət irqi ayrıseçkilikdən deyil, məhz aparteiddən gedir. Maddədə Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 2 - ci maddəsi, demək olar ki, eynilə təkrar edilmişdir. Məhz məcəlləmizdə sadalanan əməllər də bu Konvensiyada əks olunan əməllərlə eynilik təşkil edir. Buna görə də düşünürəm ki, irqi ayrıseçkilik ayrıca bir müstəqil tərkibli cinayət kimi ( yəni aparteidlə qarışıq olmayaraq) öz əksini tapmalıdır, çünki 1965 - ci il Konvensiyasında deyilir:

"Bu Konvensiyada "irqi ayrıseçkilik" ifadəsi məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud üstün tutulmanı bildirir".

Yuxarıdan yazılanlardan da göründüyü kimi "aparteid" bir irqə mənsub insan qrupu üzərində ağalığı , irqi qrup, yaxud qrupların üzvlərini öldürməni və s. özündə ehtiva etdiyi halda, irqi ayrıseçkilik siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti yaxud üstün tutulmanı özündə ehtiva edir. Məhz deyilənlərə görə müvafiq olaraq Cinayət Məcəlləmizdə və həmçinin Cinayət Məcəlləmizin Kommentariyasında da müvafiq düzəlişlərin nəzərə alınmasını istərdim.

Yuxarıda dediklərimizi ümumiləşdirsək, belə nəticəyə gəlmək olar ki, bizim Cinayət Məcəlləmizin göstərilən maddəsi Roma Statunun deyil, 1973 - cü il tarixli "Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya"nın transformasiyasıdır.

Məcəlləmizdə şərh olunan cinayətin obyektini irqindən, dərisinin rəngindən və milli mənsubiyyətindən asılı olmayaraq xalqlar, millətlər və dövlətlər arasında dinc yanaşı yaşamanın əsasları, onlar arasında sülhün, təhlükəsizliyin, əməkdaşlığın normal inkişafı təşkil edir. Əlavə obyekt isə hər hansı bir irqi qrupun həyat, sağlamlıq, mülkiyyət, azadlıq, hüquq və ləyaqəti təşkil edir. Cinayətin obyektiv cəhətini 111.0.1-111.0.6 - cı maddələrində sadalanan cinayətlərin törədilməsində ifadə olunur. Subyektiv cəhətdən isə qəsdlə xarakterizə olunur. Cinayətin subyekti 16 yaşına çatmış şəxs ola bilər.

Məlumat üçün onu da deyim ki, 1996-cı il may ayının 31- də ölkəmizdə "İrqi ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu" qəbul edilmişdir və Azərbaycan Respublikası İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 21 dekabr 1965-ci ildə qəbul olunmuş Beynəlxalq Konvensiyaya qoşuldu və beləliklə, Azərbaycan öz üzərinə kifayət qədər önəmli öhdəliklər götürdü. Həmçinin bu kovensiyaya görə İştirakçı dövlətlər Birləşmiş Millətlər Təşkilatının Baş katibinə Komitədə baxılmaq üçün bu Konvensiyanın həyata keçirilməsinə kömək etmək məqsədilə gördüyü qanunvericilik, məhkəmə, inzibati və digər tədbirlər haqqında məruzə təqdim etməyi öhdələrinə götürürlər. Bu dövlətlər irqi üstünlüyə, yaxud nifrətə əsaslanan ideyaların hər hansı şəkildə yayılmasını, irqi ayrı-seçkiliyə hər cür təhrikçiliyi, eləcə də hər hansı irqə, yaxud başqa rəngli dəriyə, yaxud etnik mənşəyə mənsub insan qrupları əleyhinə yönəldilmiş bütün zorakılıq hərəkətlərini, yaxud belə hərəkətlərə təhrikçiliyi, habelə irqi ayrı-seçkilik fəaliyyəti aparılması üçün, onun maliyyələşdirilməsi də daxil olmaqla, hər cür yardım göstərilməsini qanunla cəzalandırılan cinayət növü elan edirlər ki, yuxarıda da qeyd etdiyim kimi bu məsələlər Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyində öz əksini tapmışdır.

Nəticə olaraq onu deyə bilərik ki, demokratikləşən dünyada insan hüquqları

qlobal kontekstdə ən əhəmiyyətli müzakirə mövzularından birinə çevrilmişdir. Müasir dövrdə formalaşan kosmopolit düşüncə tərzi insan hüquqlarına öz yanaşmasıyla fərqlənir. Bu düşüncə tərzinə görə, dünyada insanları sırf "dünya vətəndaşı" kimi qarşılamaq lazımdır, yəni, bu halda irq, din, millət, etnik və s. kimi amillər arxa plana keçir. Bu baxımdan qlobal-laşan dünyada sadalanan kateqoriyalara dair ayrıseçkiliyin aradan qaldırılması demokra-tikləşmə və liberal sistem yaradılması pros-esində əsas müzakirə obyektlərindən biridir. İrqi ayrıseçkilik məsələsi, xüsusən Cənubi Afrikada baş verən bir sıra hadisələrdən ( Ən dəhşətlisi - Şarpevil qətliami) sonra dünya gündəminə çıxmışdır. Bu hadisələrdən sonra irqi ayrıseçkilik məsələsi beynəlxalq təşkilat-lar səviyyəsinə çıxmış və Şarpevil qətliamının baş verdiyi 21 Mart tarixi hər il irqi ayrıseçkil-iyə qarşı mübarizə günü kimi qeyd edilmişdir. Həmin dövrdən etibarən irqi ayrıseçkiliyin ara-dan qaldırılmasına dair müxtəlif konfranslarda çıxışlar səslənmiş, konvensiyalar qəbul olun-muşdur, lakin çox təəssüflə qeyd etməliyəm ki, hal-hazırda hələ də az olmayan miqdarda irqi ayrıseçkiliyin hökm sürməsi heç kimə naməlum deyil. Dünyanın hegemon ölkəsi olan ABŞ-da baş verən Ferquson hadisələri bunu deməyə, yəqin ki, əsas verir. İrqi ayrıseçkilik mövzusunda müasir dövrlə ötən əsrləri müqay-isə etsəm, xeyli dəyişikliklərin olduğunu qeyd edə bilərəm. Məsələn, ötən əsrlərdə dünyanın xeyli ölkələrində qaradərili şəxslər bazarda qul kimi satılır, onlara Avropoidlərlə eyni mək-təbdə təhsil almağa icazə verilmir ve digər hüquqları əllərindən alınırdı. Daha sonra isə müxtəlif dövlət başçıları irqi ayrıseçkiliyin aradan qaldırılması üçün tədbirlər görmüş, Avraam Linkolnun dövründə qaradərililərin hüquqlarının müdafiəsinə dair akt qəbul edilmiş, Harriyet Bicher - Stou "Tom dayının daxması" əsəriylə hərəkata dəstək vermişdir. Həmçinin, metropoliyaların müstəmləkə siyasəti də Avropoid irqinin ali irq olmasına gətirib çıxarmış, qara dərililər isə onlardan asılı vəziyyətə gəlib çıxmışdılar, lakin müstəmləkə sistemi dağıdıldıqdan sonra bir çox qitələrdən, o cümlədən Afrikadan Avropa ve Amerikaya miqrasiya dalğaları baş vermişdir. Bundan sonra Avropa və Amerikada qaradərililərin sayı artmışdır, bu isə multikulturalizm pros-esinə öz töhfəsini vermişdir və nəticədə bəzi ölkələrdə multikulturalizm milli siyasət kimi qəbul edilmişdir. Bu da qaradərililərin müda-fiəsində əhəmiyyətli addım olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, hər nə qədər ötən illərlə müqayisədə bu sahədə Azərbay-canda inkişaf olsa da, yenə də irqi - ayrıseçki-lik barəsində daha çox işlərin görülməli olduğunu düşünürəm. Ən azından Multikul-turalizm mərkəzi Azərbaycanda daha çox təd-birlər, treyninqler keçirsə, fikrimcə, daha ef-fektiv nəticələr əldə edə bilərik. Tolerantlıq mərkəzində də ancaq din məsələsində toler-antlığa dair tədbirlər və maarifləndirmələrin deyil, aparteidlə də bağlı tədbirlərin keçirilməsini daha məqsədəuyğun sayıram.

Müasir dövrdə də irqi qruplara qarşı edilən zorakılıqlar göstərir ki, bu sahədə olan boşluqlar hələ də davam edir. Təbii ki, bu boşluqları doldurmaq üçün beynəlxalq səvi-yyədə işlər görülməlidir. Fikrimcə, ilk olaraq, BMT başda olmaqla beynəlxalq təşkilatlar irqi ayrıseçkilik mövzusunda olan fəaliyyətini daha da genişləndirməli, komissiyalar müxtəlif ölkələrə səfərlər təşkil edərək azlıqların hüquq və azadlıqlarının nə dərəcədə qorunmasına nəzarət etməli, çətin vəziyyətdə olan azlıqlara istənilən sahədə kömək edilməlidir. Təbii ki, burada ölkənin daxili siyasəti də əsas faktorlar-dan biridir. Daim maarifləndirmə işləri aparıl-malı, irqi azlıqlara dəstək fondları yaradılmalı, onların dövlətin siyasi, iqtisadi, mədəni və s. sferalarında iştirakına şərait yaradılmalıdır.

Həmçinin Cinayət Məcəlləmizdə bu məsələlərlə bağlı maddənin məzmununun qeyri - dəqiqliyi ilə bağlı qanunverici orqanın daha dəqiq fikirlər irəli sürməsini, hər iki ci-nayət - aparteid və irqi ayrıseçkilik arasın-dakı fərqin düzgün müəyyən edilməsini daha məqsədəuyğun sayıram, düşünürəm ki onların hər biri ayrı - ayrı cinayət tərkibləri kimi Ci-nayət Məcəlləsində öz əksini tapmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. http:// evolutiondeceit.com
2. Rahim Məmmədov "Beynəlxalq ci-nayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi, NAT MMC (Bakı -2012, səh. 135
3. "Aparteid cinayətinin qarşısının alın-ması və ona görə cəzalandırma haqqında" Beynəlxalq Konvensiya
4. http://www.unodc.org/unodc/en/about-unodc/speeches/speech_2007_05_08.html
5. Azərbaycan Respublikasının Konsti-

tusiyası Bakı “Qanun”- 2009 s.25-26
6. Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi( Ayrı-seçkilik əleyhinə Avropa Hüququ üzrə məlumat kitabı)”Aypara “ Nəşriyyat evi 2014 s.118
7. CERD, “Konvensiyanın 1-ci maddəsinin, 1 və 4-cü bəndlərinin tətbiqi ilə bağlı VIII Ümumi Tövsiyə”(General Recommendation VIII concerning the interpretation and application of Article 1, paragraphs 1 and 4 of the Convention”)
8. İnsan hüquqlarının müdafiəsinin universal mexanizmləri.( Universal human rights protection mechanisms) “Azərbaycan Hüquqlar Konsorsiumu”layihəsi. Bakı 2013 s.45
9. Fərhad Mehdiyev “Nəzəriyyə və təcrübədə İnsan Hüquqları”dərsliyi Bakı 2013 “Adventa MMC” s.248
10. Kipr Türkiyəyə qarşı, 2001 (Türkiyənin “Kıbrıs çıkarması”)
11. http://www.legislationline.org/search
12. http://www.globalpost.com/dispatch/news/offbeat/130809/switzerlands-biases-exposed-the-world
13. http://www.globalissues.org/article/165/racism#RacisminEurope
14. The Constitution of The Republic of Namibia p.10-11, p. 15
15. Quran’i-Kərim. Hucurat surəsi 49/13
16. Türk Ceza Kanunu.2013- Genel Hükümler, YEDİNCİ BÖLÜM Hürriyete Karşı Suçlar
17. French and American Approaches to Antidiscrimination Law By Julie Chi-hye Suk Assistant Professor of Law, Benjamin N. Cardozo School of Law—Yeshiva University
18. Serbian Criminal Code and Procedure 2013
19. Bulgarian Criminal Code and Procedure 2011
20. Əlövsət Allahverdiyev “İnsanlıq əleyhinə cinayətlər beynəlxalq cinayətlərin bir növü kimi” mövzusunda dissertasiya işi, səh 98, Bakı- 2012
21. The Autobiography of Benjamin Franklin Copyright © 1998 - 2012 The Pennsylvania State University is an equal opportunity University.

